Elm və təhsil nazirinin müavini Həsən Həsənli Özbəkistanın Səmərqənd şəhərində Birləşmiş Millətlər Təşkilatının Təhsil, Elm və Mədəniyyət üzrə Təşkilatının (UNESCO) Baş Konfransının 43-cü sessiyası çərçivəsində Misir Ərəb Respublikasının ali təhsil və elmi tədqiqat naziri Mohamed Ayman Ashour ilə görüşüb.

Görüş zamanı iki ölkə arasında elm və ali təhsil sahəsində əməkdaşlığın cari vəziyyəti və inkişaf perspektivləri müzakirə edilib. Tərəflər ali təhsil müəssisələri arasında birgə elmi tədqiqat layihələrinin, tələbə və müəllim mübadiləsinin genişləndirilməsinin əhəmiyyətini vurğulayıblar.